
Yurdan Nağıl Bağı
ÇINQIDI-ÇINQIDI BALA SƏRÇƏ

*Yurdan Nağıl Bağı*

# ÇINQIDI-ÇINQIDI BALA SƏRÇƏ

"TUTU" Uşaq Mədəniyyət Mərkəzi

Bakı - 1998



Bəlkə olub, bəlkə olmayıb, amma deyirlər nə vaxtsa bir Bala Sərçə vardı. Günlərin birində onun ayağına tikan batır. Bala Sərçə ha çalışır, ha çabalayır, tikanı çıxara bilmir. Neyləsin-neyləməsin, sarı bülbülə deyir, qaranquşa yalvarır, amma onların heç biri tikanı çıxara bilmirlər. Çarəsiz qalan Bala Sərçə bir şələ odunu qoltuğuna vurub, gəlir qarı nənənin yanına:

- Can nənə, götür odunu yandır, ancaq mənim ayağımdan bu tikanı çıxar.





Qarı nənə ocaq qalayır, tikanı çıxarıb, odunla birlikdə ocağa atır. Sonra da sacı qızdırıb, üstündə 7 dənə yuxa bişirir. Yuxanın ətrindən xoşhallanan Bala Sərçə təzədən qarı nənənin yanına enib mızıldanır:

- Can nənə, mənim tikanımı özümə qaytar.

- Gözəl balam, Bala Sərçə, sənin tikanın çoxdan alışıb yanıb!

Bala Sərçə əl çəkmir, tikan batan ayağını yerə vurub şivən qoparır:

- Ya tikanımı qaytar, ya yuxanı ver! Ya tikanımı qaytar, ya yuxanı ver!

Yazıq qarı nənə 7 yuxanı verəsi olur.





Bala Sərçə, qoltuğunda yuxa, bir çəmənin üstündən uçarkən görür ki, çobanlar qoyun sağıb, südünü elə yavan-yavan içirlər. Onlara yazığı gələn Bala Sərçə deyir:

- Çoban qardaşlar, bu 7 yuxanı sizə verim, südə doğrayıb, birlikdə yeyək.

Çobanları razı salan Bala Sərçə təzəcə süfrəyə oturanda, göydə bir qırğı peyda olur. Bala Sərçə qorxusundan gizlənir. Qayıdanda görür ki, nə süd qalıb, nə yuxa. Başlayır şivən qoparmağa:

- Ya yuxanı qaytarın, ya qoyunları verin! Ya yuxanı qaytarın, ya qoyunları verin!

Yazıq çobanlar 7 yuxanın əvəzinə 7 qoyun verəsi olurlar.


7



Bala Sərçə uça-uça, qoyunları qova-qova gəlib bir aula çatır. Təsadüfən o gün bu aulda toy varmış. Bu cür əlidolu qonağı görən toy yiyələri Bala Sərçənin şərəfinə kovxa rəqsini çaldırırlar. Bala Sərçə yorulunca gəlinlə rəqs edib, toy süfrəsinə oturur. 7 qoyunun ətindən kabab çəkib, buğlana-buğlana yeməyə gətirəndə, yenə göyüzündə qırğı peyda olur və Bala Sərçə yenə qorxusundan gizlənir. Bu yırtıcı qırğı çəkilib gedincə, toy da qurtarır, qonaqlar da dağılır, süfrə də boşalır. Gizləndiyi yerdən çıxan Bala Sərçə yenə çığır-bağır salır, şivən qoparır:

- Ya qoyunları qaytarın, ya gəlini verin! Ya qoyunları qaytarın, ya gəlini verin!





Təzəbəyin 7 qoyunu hardan? - gəlini verəsi olur. Bala Sərçə gəlini belinə alıb, yola düzəlir. Bir xeyli uçandan sonra saz çalıb, mahnı çağıran bir oğlana rast gəlir. Sazdan çox xoşlanan Bala Sərçə oğlana deyir:

- Sən mənə sazı ver, mən sənə qızı.

Oğlan sevincək sazı verib, qızı alır və gedir. Bala Sərçə də sazı götürüb bir budağa qonur və oxumağa başlayır:





Tikan verdim, yuxa aldım.
Çınqıdı-çınqıdı Bala Sərçə!
Yuxa verdim, qoyun aldım.
Çınqıdı-çınqıdı Bala Sərçə!
Qoyun verdim, gəlin aldım.
Çınqıdı-çınqıdı Bala Sərçə!
Gəlin verdim, saz aldım.
Çınqıdı-çınqıdı Bala Sərçə!
Çınqıdı-çınqıdı Bala Sərçə!
Çınqıdı-çınqıdı Bala Sərçə!





Birdən, yenə qırğı görünür göyüzündə. Bala Sərçəni əsməcə tutur, qanadı boşalır və saz yerə düşüb qırıq-qırıq olur.

Bala Sərçə yenə şivən qoparır, çığır-bağır salır, ancaq heç kimi tapmır.

Bəlkə indi də uçur Bala Sərçə. Birdən sizi görsə sazın əvəzində nəsə istəyəcək və sonra mahnı oxuyacaq:

Çınqıdı-çınqıdı Bala Sərçə!
Verdiyin istər dala sərçə!..



"TUTU" Uşaq Mədəniyyət Mərkəzi

*Uşaqlar bütün nağılları*
*ilk dəfə Ana Dilində eşidir.*
*Bütün uşaqlarla dost olmaq*
*istəyirsənsə, onların dinlədiyi nağılı*
*sən də dinlə, sən də anla.*
*Ətirli gül-çiçək kimi, hər dilin də*
*öz rəngi, öz qoxusu var.*
*Yurdunun bütün rənglərini*
*görsən, Dünyanın ətrini alacaq,*
*canlı olan hər şeyi*
*sevib-qoruyacaqsan...*

